ISSN:2148-2292

Akademik Tarih ve Düşünce Dergisi, 2019, 6 (2), ss 495-518

Academic Journal of History and Idea, 2019, 6 (2), pp 495-518

Araştırma Makalesi
Original Article

# Kahkaha Kalesi'nin 20 Yıllık Mahpusu: İsmail Mirza Safevi

**Tofiq Nəcəfli***

**ORCİD-0000-0002-1893-2012**

**Öz**

İsmail Mirza Azerbaycan Safevi hükmdarlarından Şah I. Tahmasp'ın ikinci oğludur. O, çocukluk yıllarını Safevi sarayında geçirerek, ilm ve adap tahsili almakla birlikte savaş kuralları hakkında da bir şehzade olarak eğitim almıştır. Uzun boylu, mağrur ve cesur olan genç İsmail, cenge meyilli bir şehzâde idi. O, daha genç yaşlarında iken birçok ceng meydanında iştirak etme fırsatı bulmuş, özellikle Osmanlılarla yaptığı savaşlarda gösterdiği başarılar ona mağlup edilmez komutan ünü kazandırmıştır. Oğlunun bazı haram işlere bulaşmasından endişelen Şah Tahmasp, onu önce Herat'a, oradan da hayatının tam yirmi yılını geçireceği ıssız Kahkaha Kalesi'ne sürgün etmiştir. Buna rağmen halk tarafından sevilen İsmail hakkında çeşitli rivayetlerin söylendiği de bilinmektedir.Babasının 1576 yılında vefatından sonra Haydar Mirza ile giriştiği saltanat mücadelesinde Ustaclular hariç tüm Kızılbaş aşiretlerinin desteğini alan İsmail, böylece şahlığını ilan etmiş oldu. Şah II. İsmayıl (1576-1577) adı ile kısa müddetli hakimiyeti döneminde daha çok dini islahatlar yapması ile akıllarda kalmıştır. Safevi ulamasının kışkırtmacaları sonuçu bir sui-kast kurbanı olarak öldürülmüştür. Devrin kaynakları gerek şahzadelik yılları, gerekse de kısa hakimiyet dönemi hakkında yeterince bilgi vermektedir. Burada onun şehzadeliğinin çocukluk ve gençlik yılları ile Kahkaha Kalesi'nde mahpus kalmasının nedenleri ve kısa hakimiyet dönemi hakkında devrin kaynakları ışığında müzakereli bilgi verilmiştir.

**Anahtar kelimeler:** Şah I. Tahmasp, İsmail Mirza, Kahkaha Kalesi

**Gönderme Tarihi: 19/04/2019** **Kabul Tarihi:20/06/2019**

---

*Prof., Dr. AMEA A.A.Bakıxanov adına Tarix institutunun elmi işlər üzrə direktor müavini, E-Posta: tofignajafli@gmail.com*

© ATDD Tüm Hakları Saklıdır

# The 20-Year Prisoner Of The Qahqaha Castle: Ismail Mirza Safavi

**Tofiq Nəcəfli**

**ORCİD-0000-0002-1893-2012**

**Abstarct**

Ismail Mirza is the second son of the Safavi ruler Shah Tahmasb I. He had spent his childhood in the palace, had the opportunity to take up combat training, and learn about science and the good manners. Strong, stately, proud and brave Ismail distinguished himself for his keen desire to military service. He had the opportunity to display his military valour from his early age, his maneuvering in combat, his brave, speedy attacks and victories brought him glory of an invincible warrior. Despite the fact that he spent twenty years of his life in prison in the Qahqaha Castle, legends about Ismail's bravery continued to live among the people.After his father's death in 1576, he was released from the Qahqaha Castle by his supporters and was taken to Gazvin and in August of the same year he was enthroned as the shah under the name of Ismail II. Initiatives of Shah Ismail II (1576-1577) during his short-term rule to implement the religious reform in the country did not justify itself and he was killed. The sources of the time provide us with detailed information about Ismail Mirza's involvement in the military-political processes of the period and his valours. In this article, we have just considered to deal with his childhood years, as well as the achievements he had gained in the military arena and the reasons for his imprisonment in the Qahqaha Castle and about twenty years of his life in prison.

**Keywords:** Shah Tahmasb I, Ismail Mirza, the Qahqaha Castle

**Received Date: 19/04/2019** **Accepted Date: 20/06/2019**

# 20-Летний Узник Крепости Кахкаха: Исмаил Мирза Сафави

## Резюме

Исмаил Мирза – второй сын сефевидского правителя шаха Тахмасиба I. Свое детство он провел во дворце и имел возможность осваивать боевое мастерство, обучаться наукам и получить хорошее воспитание. Будучи крепкого телосложения, гордым и отважным, он отличался также воинственностью. Уже в молодом возрасте у него была возможность проявить свое боевое мастерство, а применяемые им в бою тактические маневры, смелость, умение наносить быстрый удар и одержанные победы принесли ему славу непобедимого воина. И даже несмотря на проведенные 20 лет в заточении в крепости Кахкаха легенды о геройстве Исмаила продолжали ходить из уст в уста.После смерти его отца в 1576 году он был освобожден из крепости Кахкаха своими сторонниками, привезен в Газвин и в том же году провозглашен шахом под именем шаха Исмаила II. Инициатива проведения религиозной реформы, предпринятая шахом Исмаилом II (1576-1577) в течение своего короткого правления, осталась незавершенной – в результате заговора он был убит. Источники того периода дают подробную информацию об участии Исмаила Мирзы в военно-политических процессах этого периода. В данной статье мы осветили детские годы его жизни, боевые заслуги, причины заключения в крепость и 20-и летний период жизни в заточении.

**Ключевые слова***:* шах Тахмасиб I, Исмаил Мирза, крепость Кахкаха

**Получено: 19/04/2019** **Принято: 20/06/2019**

## Giriş

Həyatının iyirmi ilini quş qonmaz, karvan keçməz Qəhqəhə[**] qalasında keçirən, Səfəvilərdə qardaş qətlinin həyata keçirilməsinin əsasını qoyan, sünniliyə meyl etməsi ilə seçilən, müəmmalı şəkildə vəfat edən, ölümündən sonra çoxsaylı Yalançı İsmayılların yaranmasına yola açan İsmayıl mirzə Səfəvi Azərbaycan Səfəvi dövlətinin üçüncü hökmdarı olmuşdur. İsmayıl mirzənin doğum tarixi və uşaqlıq illəri barədə dövrün farsdilli qaynaqlarında ətraflı məlumat olmasa da, onun Azərbaycan Səfəvi dövlətinin qurucusu Şah I İsmayılın nəvəsi, Şah I Təhmasibin ikinci oğlu olduğu xüsusi vurğulanır. K.Gərəkli Qazi Əhməd Quminin "Xülasət ət-təvarix" əsərinə istinad edərək yazır ki, İsmayıl mirzə zilhiccənin 21 943 (31 may 1537)-cü ildə Qumda Şah I Təhmasibin İsa xan Mosullunun[**1*] qızı olan böyük xanımı Sultanımdan dünyaya gəlmişdir.[2] Alman şərqşünası Valter Hins Avropa səyyahlarının verdiyi məlumata əsaslanaraq İsmayıl mirzənin doğum tarixini 1533-cü il kimi qeyd edir.[3] O.Ə.Əfəndiyev də V.Hinsin mövqeyini müdafiə edir və İsmayıl mirzənin 1533-cü ildə anadan olduğuna işarə edərək yazır: "Şah II İsmayıl adı ilə tanınan İsmayıl mirzə on dörd yaşlı gənc ikən siyasət neydanına atıldı. Hicri 954 (1547)-cü ildə şahın qardaşı Əlqas Mirzə qiyam etdi. O, türk sultanının sarayına üz tutdu və Şirvanın idarə olunması gənc İsmayıla həvalə

---

[**] Qəhqəhə qalası-Cənubi Azərbaycanda Qaradağ mahalında, Ərdəbildən 70 km. şimal-qərbdə dağ başında yüksək qayalıqda yerləşən tarixi qaladır. Dağın ətəyindən qalaya qədər yarım fərsəx yoxuşdur. Bir nəfər onu tüfənglə qoruya bilir. Qalaya bir nəfərin çətinliklə hərəkət edə biləcəyi yol vardır. Səfəvi dövləti yarandıqdan sonra bu qala siyasi məhpusların, xüsusilə üsyançı şahzadələrin, əmirlərin həbsxanası olmuşdur. Burada, həmçinin dövlətin xəzinəsi mühafizə olunurdu (bax: Hasan Rumlu, *Safevi Şahı II. İsmayıl, Kahkaha Kalesinin 20 Yıllık Mahpusu,* Tercüme, Mukaddime, Notlar ve Tıpkıbasım Hasan Asadi, Şefaatdin Deniz, İstanbul: Bilge Kültür Sanat, 2018, 11).

[***] Bax: Q. Ə. Qumi, *Xülasətüt-təvarix, 2. cilt.* Təshih: Tehran: Ehsan Eşraqi, 1383, 950; Şerefhan Bitlisi, *Şerefname, Osmanlı-İran tarihi, 2. cilt.* Farscadan çeviren Osman Aslanoğlu, İstanbul: Nubihar, 2014, 218; Faruk Sümer, *Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolu,* Ankara: Türk Tarih Kurumu Yayınları, 1999, 115; Oqtay Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* Bakı: Şərq-Qərb, 2007, 113; Ghereghlou, Kioumars, "Esmail II," *Encyclopedia Iranica,* 2016, http://www.Iranicaon line. org/articles/esmail-02 (07.01. 2019).

[2] Qumi, *Xülasətüt-təvarix,* 2:950; Maraqlıdır ki, Həsən bin Murtuza Hüseyni Astarabadi və İsgəndər bəy Münşi İsmayıl mirzənin anasının Musa xan Mosullunun qızı olduğunu qeyd edirlər (Bax: Həsən bin Murtuza Hüseyni Astarabadi, *Tarix-i Sultani,* təshih: İhsan İşraqi, Tehran: İntişarat-ı elmi, 1366, 100). İsmayıl mirzə anadan olan dövrdə onun dayısı Musa xan Mosullu Təbriz (Azərbaycan) bəylərbəyi idi (bax: Bidlisi, *Şerefname,* 2:164).

[3] Walter Hinz, *"Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavīden,"* Mitteilungen des Seminars für Orientalische Sprachen an der Friedrich-Wilhelms-Universität zu Berlin, 1933, 25; V. Hins, *Şah İsmayıl-i Dovvom-i Səfəvi,* çeviren, Keykavus Cihandari, Tehran: Şirkət-i intişarat-ı elmi və fərhəngi, 1371, 15.

olundu".[4] O.Ə.Əfəndiyev bu məlumatı Həsən bəy Rumludan götürdüyünü qeyd etsə də, həmin fikirdəki birinci cümlənin V.Hinsə məxsus olduğu aydın hiss olunur.[5] Maraqlıdır ki, V.Hins əsərinin girişində Vinçenso Alessandrinin Məhəmməd mirzənin 43, İsmayıl mirzənin də 41 yaşının olması barədə məlumat verdiyini qeyd edir. Lakin o, Məhəmməd mirzənin 41 yaşının olması barədə Həsən bəy Rumlunun verdiyi məlumatın daha doğru olduğunu göstərir və bildirir ki, italyan diplomatın bu məlumatının doğruluğuna etibar etmək olmaz.[6]

1571-1573-cü illərdə Səfəvi sarayında olan Venesiya diplomatı Vinçenso Alessandri öz səyahətnaməsində Şah I Təhmasibin ikinci oğlu İsmayıl haqda yazır: Şahın "qırx bir yaşlı ikinci oğlu möhkəm qədd-qamətli, məğrur və cəsur İsmayıl hərbə meyllidir. O, igidliyini osmanlılara qarşı çoxlu toqquşmalarda, xüsusilə Ərzurum paşasına qarşı döyüşdə sübut etmişdir".[7] Qeyd etmək lazımdır ki, Vinçenso Alessandrinin İsmayıl mirzənin yaşı ilə bağlı verdiyi məlumatı dövrün farsdilli qaynaqları təsdiq etmir. İsgəndər bəy Münşi yazır ki, 1576-cı ildə atasının ölümü vaxtı İsmayıl mirzə qalada məhbus idi və qırx yaşı vardı.[8] Bu, İsmayıl mirzənin 1535/36-cı ildə anadan olduğunu söyləməyə imkan verir. Həsən bin Murtuza Hüseyni Astarabadi "Tarix-i Sultani" adlı əsərində İsmayıl mirzənin hicri 942 (1535/1536)-ci ildə doğulduğunu qeyd edir.[9] Bununla da, İsmayıl mirzənin doğum tarixi ilə bağlı farsdilli qaynaqlardakı məlumatlarda müəyyən qeyri-dəqiqliğin olduğu ortaya çıxır.

### İsmayıl mirzənin hərbi şücaəti

Şah I Təhmasbın böyük oğlu Məhəmməd mirzəni altı yaşına çatan zaman lələsi Məhəmməd xan Şərəfəddinoğlu Təkəlü ilə birlikdə Herata hakim təyin etdi. Buna görə də İsmayıl mirzə uşaqlıq illərini sarayda keçirib, döyüş təhsili almaq, elm və ədəb qaydalarını öyrənmək fürsəti əldə etdi. İsgəndər bəy Münşi yazır: "İsmayıl mirzə adlı-sanlı atasının yanında böyümüş, həmişə onun şəfqət və tərbiyəsinin nəzərləri altında

---

[4] Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* 114.
[5] Bax: Hinz, *Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavīden,* 26; Hins, *Şah İsmayıl-i Dovvom-i Səfəvi,* 17.
[6] Hinz, *Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavīden,* 25; Hins, *Şah İsmayıl-i Dovvom-i Səfəvi,* 15.
[7] *Venesiyalılar Şah I Təhmasibin sarayında (Mikele Menbre və Vinçenso Alessandri).* İngilis dilindən tərcümə, ön söz, giriş və şərhlər AMEA-nın müxbir üzvü Oqtay Əfəndiyevindir. Bakı: Təhsil, 2005, 83.
[8] İsgəndər bəy Münşi, *Tarix-i aləmara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi),* Fars dilindən tərcümənin, ön sözün, şərhlərin və göstəricilərin müəllifləri AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Oqtay Əfəndiyev, tarix elmləri namizədi Namiq Musalı, Bakı: Təhsil, 2009, 294.
[9] Astarabadi, *Tarix-i Sultani,* 100.

olmuş və həyatının üzərində şahın qayğıkeş nurları əks olunub parlamışdır”.[10] İsmayıl mirzənin on bir yaşı[*] olan zaman atası Şah I Təhmasib tərəfindən ona siyasi və hərbi məsuliyyəti böyük olan bir iş tapşırıldı. 1547-ci ildə Şirvan hakimi Əlqas Mirzə üsyan bayrağını qaldırmışdı. Səfəvi şahı bir qrup qızılbaş əsgərini Bəhram mirzənin və Abdulla xanın başçılığı altında Şirvan və Dərbəndə göndərdi. Üsyan yatırıldıqdan sonra Şirvan vilayətinin idarəsi İsmayıl mirzəyə tapşırıldı və o, lələsi Gögcə Sultan Qacarla birlikdə Şamaxıya göndərildi.[11]

Gənc şahzadə tezliklə öz hərbi şücaətini nümayiş etdirmək imkanı əldə etdi. O, devrilmiş Şirvanşahlar sülaləsinin nümayəndəsi olan Bürhan mirzə ilə vuruşmada döyüş sınağından çıxdı. Belə ki, 1548-ci ilin yayında gənc şahzadənin əmisi Əlqas mirzə Osmanlı sultanı Süleyman Qanunini Azərbaycana qarşı üçüncü yürüşə vadar etməsindən yararlanan Bürhan mirzənin Şirvandakı üsyanını yatırmağa göndərildi. Dövrün qaynağının verdiyi məlumata görə İsmayıl mirzə 1548-ci ildə Şirvanşah Xəlilüllahın oğlu Bürhan mirzənin Səfəvilərə qarşı qaldırdığı üsyanı yatırmaq üçün göndərilən qoşuna rəhbərlik etdi. Dağıstanlıların yardımı ilə Şirvana hücum edən Bürhan mirzənin qoşunu İsmayıl mirzə tərəfindən məğlub edildi və o, Osmanlı torpaqlarına qaçmaq məcburiyyətində qaldı.[12]

Tezliklə İsmayıl mirzə öz bəxtini Osmanlı sultanı Süleyman Qanuninin o dövr üçün güclü sayılan ordusu ilə daha çətin döyüşlərdə sınadı. Gənc şahzadənin sərkərdəlik istedadı düşmənlə döyüşlərdə özünü parlaq şəkildə göstərdi.[13] 1548-ci ildə Sultan Süleyman Qanunin Azərbaycana üçüncü yürüşü zamanı İsmayıl mirzə Şirvan qoşunu ilə Acısu çayının sahilində Şah I Təhmasibin ordusuna birləşdi.[14] Osmanlı sultanı Təbrizi üçüncü dəfə ələ keçirsə də, ərzaq çatışmadığına görə şəhəri tərk etmək məcburiyyətində qaldı. Həsən bəy Rumlu yazır: “Dinin pənahı olan şah Əşkənbər yaylağında xondgarın Təbrizdən çıxıb getdiyini eşitdikdə ... basqın etmək əzmi ilə köçhaköçlə yola düşdü... rəcəb [ayının] ... 10-da (15.08.1548) qalib hökmdar Çaldıran çəməninə gəldi...

---

[10] Münşi, *Tarix-i aləmara-yi Abbasi,* 293.

[*] Hinz və Əfəndiyev, İsmayıl mirzənin on dörd yaşının olduğunu qeyd edirlər. (bax: Hins, *Şah İsmayıl-i Dovvom-i Səfəvi,* 26; Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* 114).

[11] Bax: Həsən bəy Rumlu, *Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı),* Fars dilindən tərcümə və şərhlər: AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Oqtay Əfəndiyev, tarix üzrə fəlsəfə doktoru, dosent Namiq Musalı, Kastamonu: 2017, 537-538; Münşi, *Tarix-i aləmara-yi Abbasi*, 185; Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* 114.

[12] Rumlu, *Əhsənüt-təvarix* 540; Rumlu, *Safevi Şahı II İsmayıl,* 10; Hins, *Şah İsmayıl-i Dovvom-i Səfəvi,* 17.

[13] Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* 114.

[14] Rumlu, *Safevi Şahı II. İsmayıl,* 541.

Cah-calallı [hökmdarın] qulağına çatmışdı ki, [Sultan Süleyman] Məhəmməd xan Zülqədərin qardaşı Əli bəyə paşalıq verib və Osman Çələbi Qullarağasını dörd min nəfərlə Gürcüstan sərhədində yerləşən Qars qalasını təmir etməyə göndərib. Buna görə də dinin pənahı olan şah igid və şərəfli oğlu İsmayıl mirzəni Gögcə sultan Qacarla birlikdə onları qırıb-biçməyə göndərdi. Aləm sakinlərinin şahzadəsi ordudan ayrılıb, o çoxsaylı qövmün üzərinə əcəl kimi sürətlə hərəkət etdi".[15] Həsən bəy Rumlunun verdiyi məlumatdan aydın olur ki, İsmayıl mirzə Qars qalasının müdafiəçilərinin müqavimətini qırmış, Osman Çələbi aman diləmək məcburiyyətində qalmışdı. İsmayıl mirzə Qars qalasını talan edərək düşərgəyə qayıtmışdı.[16] Bu zaman Üləma bəyin Tərcanda olduğunu xəbər alan Şah I Təhmasib öz qoşunu ilə oraya hərəkət etdi. Lakin Üləma bəy qaçdığı üçün Tərcan ətrafı qarət olundu və 1548-ci il sentyabrın 1-də Ərzincana hərəkət edildi. Həsən bəy Rumlu yazır: "Aləm sakinlərinin şahzadəsi İsmayıl mirzə savaş dəryası nəhənglərindən bir dəstə ilə Bayburd ətrafında Məhəmməd paşa Təkəoğluya rast gəldi. Sözügedən paşa qaçmağı qənimət bilib fərar etdi və qızılbaşların bir qismi onları təqib edib div kimi rumilərdən dörd yüz əlli nəfəri qətlə yetirdilər. Ərzincan şəhəri zəfər nişanlı padşahın gəlişindən cənnət bağının bir nişanəsinə döndü".[17]

### İsmayıl Mirzənin İsgəndər paşa ilə döyüşü

Gənc şahzadə İsmayıl mirzə növbəti mühüm döyüş təcrübəsini Ərzurum ətrafında İsgəndər paşaya qarşı döyüşdə qazandı. Həsən bəy Rumlu İsgəndər paşanın Xoy və Çuxursəəd vilayətinə aramsız yürüşləri barədə yazır: "Rum padşahı Sultan Süleyman tərəfindən Ərzurum hakimi olan İsgəndər paşa Xoyda Hacı bəy Dünbülini qətlə yetirmiş, Çuxursəədə gəlib o şəhərin (İrəvanın) bazarını yandırmış, heç kəs onunla döyüşmədən öz diyarına üz tutmuşdu. Həmin səbəbdən, bu işləri etdiyinə görə lovğalıq və qürur buxarı onun beyninə vurmuş, adlı-sanlı əmirlərə həddini aşan bir neçə məktub yazmışdı. Ona görə də padşahın qəzəb şöləsi alışdı. Hökmdar fərman verdi ki, cahan qoşunları fəth və zəfər günəşinin doğduğu yer olan fəth ayətli bayraqların kölgəsində hazır olsunlar".[18]

Şah I Təhmasibin göstərişi ilə Səfəvi sərkərdəsi Bayram bəy Qacar Keyxosrov Gürcü ilə ittifaqda Davelində bir neçə qalanı ələ keçirdi. Onlar basqına gedən zaman ordu qərargahı Ərzurum hakimi İsgəndər paşanın hücumuna məruz qaldı. Bu zaman

[15] Rumlu, *Safevi Şahı II. İsmayıl,* 542.
[16] Rumlu, *Safevi Şahı II. İsmayıl,* 543.
[17] Rumlu, *Safevi Şahı II. İsmayıl,* 544.
[18] Rumlu, *Safevi Şahı II. İsmayıl,* 560.

Toygün bəy Qacar və Bədir bəy Yüzbaşı ordugahda idilər. "Onlar naçar şəkildə İsgəndər paşanın qarşısına getdilər və mərdliklə döyüşdülər. Rumilərin çoxluğu və düşmənin say üstünlüyü həddən və hüduddan artıq olduğu üçün qazilər yüyənlərini dartıb fərar etdilər. İsgəndər paşa qazilərdən və gürcülərdən təxminən üç yüz nəfəri qətlə yetirdi və dərhal Ərzuruma geri qayıtdı".[19] Bu hadisədən xəbər tutan Şah I Təhmasib 1552-ci ildə İsmayıl mirzəni qızılbaş qoşunun başında İsgəndər paşanın üzərinə göndərdi. Ona Ərciş, Əxlət və Ərzurumu qarət və talan etmək əmri verildi. Həsən bəy Rumlu bu barədə yazır: "Adlı-sanlı əmirlərdən Şahverdi sultan Ziyadoğlu, Bədir xan Ustaclu, Şahqulu sultan Ustaclu, Məhəmməd bəy Türkman, Ədhəm bəy Rumlu, Əmirqeyb Ustaclu, Allahqulu bəy Ayçəkoğlu, Həmzə bəy Talış, Xəlifə Ənsar, Uluğxan bəy Səədlü, İbrahim xəlifə Alpavut, Zülfüqar bəy Pazuki, Qünqürat sultan Rumlu, min nəfər Tehran qorçusu, altı yüz Naxçıvan qorçusu aləm sakinlərinin şahzadəsinin sərəncamına verildilər. Qazilər sürətlə yola düşdülər".[20] İsmayıl mirzə Şahverdi sultan Ziyadoğlunu, Məhəmmədi bəy Türkmanı və Ədhəm bəy Rumlunu mənqəlay təyin edib Pasinə yolladı. Pasində Osmanlı qarnizonu yerləşirdi. Onlar qala divarlarının tikintisinə nəzarət edirdilər. Pasində olan Osmanlı əsgərləri qızılbaşlarla döyüşdə məğlub oldular, onlardan üç yüz nəfər qətlə yetirildi. Onların qılıncdan qurtulanları Ərzuruma getdilər. İsgəndər paşa bu xəbəri eşitdikdə Ərzurum qullarağasını iki yüz əlli süvari ilə qaravulluğa göndərdi. Onlar qızılbaşların əlli nəfər mülazimi ilə rastlaşıb döyüşdülər və məğlub oldular.[21]

Səfəvi şahzadəsinin yürüşündən xəbər tutan İsgəndər paşa Osmanlı əmirlərini toplayaraq məşvərət keçirdi. Onların məsləhəti bu oldu ki, şəhərdən çıxmaq lazım deyil. Arxamızı arxayınlıqla qalanın möhkəmliyinə dayayaraq top-tüfəng zərbəsi ilə qalanı qızılbaş qoşununun hücumundan qoruya bilərik. Lakin bu təklif lovğa və qürurlu İsgəndər paşanı təmin etmədiyi üçün o, İsmayılın ən mühüm arzusunun gerçəkləşməsinə – açıq döyüşə razılıq verdi.[22] İsgəndər bəy Münşi yazır ki, Qızılbaş ordusunun gəlməsi xəbərini alan İsgəndər paşa Ərzincan, Bayburd, Kəmax, Məraş və Trabzondan, Gürcüstanın Dadian və Guryel vilayətlərindən onun yanına toplanmış Osmanlı əmirləri və sancaqbəyilərlə məsləhətdən sonra qaladan kənarda vuruşmağa qərar

[19] Rumlu, *Safevi Şahı II. İsmayıl,* 559.
[20] Rumlu, *Safevi Şahı II. İsmayıl,* 560.
[21] Hinz, *Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavīden,* 30.
[22] Rumlu, *Safevi Şahı II. İsmayıl,* 560; Hins, *Şah İsmayıl-i Dovvom-i Səfəvi,* 31.

verdi.[23] Bununla da, "Rum əmirləri onun boş və ağılsız təklifini qəbul edərək bəla quyusuna və həlak çuxuruna düşdülər."[24] Sultan Süleymanın saray tarixçisi Cəlalzadə Mustafa Çələbi yazır ki, Van bəylərbəyi olan zaman İsgəndər paşanın etdiyi hərəkətlər Səfəvi şahını hiddətləndirdiyi üçün qisas almağı düşünürdü. Bu məqsədlə Ərzuruma yaxınlaşan qızılbaşlar əsas qüvvələrini dərələrdə yerləşdirərək pusqu qurdular, yalnız axınçı dəstəsini qala üzərinə göndərdilər. Qızılbaşların məqsədi İsgəndər paşanı aldadıb qaladan çıxarmaq və pusquya salmaq idi. Qızılbaş ordusunun əmirləri İsgəndər paşanın xarakterini və savaş üsullarını yaxşı öyrənmişdilər. Buna görə də qala üzərinə böyük ordu göndərmədilər. İsgəndər paşa cəsarətinə çox güvəndiyi üçün müdafiə olunmağı özünə sıxışdırmadı və heç zaman əhəmiyyət vermədiyi qızılbaşlarla döyüşmək üçün qaladan çıxdı.[25]

Dövrün qaynağının təsdiq etdiyi kimi, İsgəndər paşa yardımçılarından və tərəfdarlarından ibarət çoxsaylı bir dəstə ilə, piyadalardan və süvarilərdən ibarət xeyli qoşunla savaşmaq əzmi ilə qaladan çıxdı, şəhərin yarım fərsəxliyində döyüş mövqeyi tərtib etdi və beş yüz nəfər odlu tüfənglə silahlanmış yeniçəriləri iyirmi top ilə ordu səfinin önündə saxladı.[26] Qeyd etmək lazımdır ki, Osmanlı ordusu məhz odlu silahdan istifadə etməklə 1514-cü ildə Çaldıran döyüşündə Şah I İsmayılın ordusunu məğlub etmişdi. Osmanlılar ümid edirdilər ki, idi də Səfəvi şahının nəvəsini məğlub edərək qaçmağa vadar edəcəklər.[27]

Həsən bəy Rumlunun verdiyi məlumatdan aydın olur ki, İsmayıl mirzə köçha-köçlə Ərzuruma hərəkət etmişdi. O, Pasində dayandıqda Ədhəm bəy Rumlunu qaravulluğa göndərdi. Onlar İsgəndər paşanın mülazimləri ilə qarşılaşdılar. Düşmənin sayca çox olmasına baxmayaraq, qızılbaşlar onlara qorxmadan həmlə etdilər və birini ələ keçirib şahzadənin yanına göndərdilər. O, məlumat verdi ki, İsgəndər paşa qaladan çıxıb və döyüşə hazırdır.[28] İsmayıl mirzə tərəddüd etmədən döyüş meydanına yollandı. O, ordunu dəstə-dəstə İsgəndər paşanın dəf edilməsi üçün göndərdi. İlk öncə əmirlərdən

---

[23] Münşi, *Tarix-i aləmara-yi Abbasi,* 177.
[24] Rumlu, *Safevi Şahı II. İsmayıl,* 560.
[25] Celalzade Mustafa Çelebi, *Kanuninin tarihçisinden Muhteşem Çağ: Kanuni Sultan Süleyman, Tbakatül Memalik ve Derecatül-Memalik,* Notlandırarak hazırlayan Ayhan Yılmaz, İstanbul: Kariyer Yayınları, 2010, 305-306; Hins, *Şah İsmayıl-i Dovvom-i Səfəvi,* 25.
[26] Rumlu, *Safevi Şahı II. İsmayıl*, 560-561; Hinz, *Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavīden,* 31.
[27] Hinz, *Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavīden,* 31; Hins, *Şah İsmayıl-i Dovvom-i Səfəvi,* 25.
[28] Rumlu, *Safevi Şahı II. İsmayıl*, 561; Hinz, *Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavīden,* 31.

Məhəmmədi bəy Türkman, Ədhəm bəy Rumlu və Əmirqeyb sultan Ustaclu savaş meydanına çataraq həmlə etmək və baş kəsməklə məşğul oldular.[29] V.Hinsin fikrincə, İsgəndər paşanı rahatsız edən bu idi ki, qızılbaşlar sayca az olmalarına baxmayaraq döyüşün gedişində o, hələ də üstünlüyə nail ola bilməmişdi.[30] Cəlalzadə Mustafa Çələbi yazır ki, qızılbaşların ön qüvvələri bir az müqavimət göstərib geri çəkilməyə başladılar. Paşanın pusqu qurulduğundan xəbəri yox idi. Buna görə də geri çəkilən qüvvələri təqib etməyə başlayaraq pusquya düçdü. Qızılbaşlar dərhal sağ və sol cinahdan onu mühasirəyə aldılar.[31] İsgəndər paşa qızılbaş əsgərlərinin igidliyini müşahidə etdikdə böyük qorxu keçirdi, sanki damarlarında qan donub qaldı. O, ətrafındakı qüvvələrlə mərkəzdən ayrılıb, qızılbaşlara həmlə edərək onları geri oturtsa da, qızılbaşlar onun ətrafını və yan-yörəsini dövrəyə aldılar və onlara ağır zərbə endirilər.[32] Bu zaman İsmayıl mirzə bir dəstə qorçi ilə döyüş meydanı üzərindəki bir təpənin üstünə çıxdı. Osmanlı əsgərlərinin gözü onun bayrağına sataşdıqda onların müqaviməti sarsıldı və döyüş mövqeyindən qaçmağa başladılar. Hətta qızılbaşların qorxusundan yeniçərilər tüfənglərini atıb qalaya tərəf üz tutdular. Qızılbaşlar onların hamısını qətlə yetirdilər. Öldürülən yeniçərilərin sayı beş yüz nəfərdən çox idi.[33] İsgəndər paşa da "qaçmağı qənimət bilib, döyüşdən üz çevirdi və təlaş içində qalaya atıldı. Müzəffər ordunun dilavərləri məğlub olmuş Osmanlı ordusunu qalanın darvazasınadək təqib etdilər".[34] İsmayıl mirzə qaçmaq yolunu tutan osmanlıları təqib etmək üçün döyüşə atılmağa çalışsa da, Bədir xan Ustaclı və Şahqulu sultan onun atının yüyənini tutub mane olmağa çalışdılar. Şahzadə onları acılayıb qılıncını çəkərək həmlə etsə də, qorçilər onun qarşısını aldılar. Əgər ona imkan versəydilər o, qalaya girib onu da ələ keçirə bilərdi.[35]

Qaçan Osmanlı əsgərlərinin bir çoxu Ərzurum qalasının dövrəsindəki xəndəyə düşdülər. Xəndək adamlarla və atlarla dolmuşdu. Çaxnaşmada türklər qapıları bağlamağı yaddan çıxartdılar və üç qızılbaş qalaya girə bildi. Xəndəyə düşüb ölənlərdən başqa Osmanlı əsgərlərindən iki min beş yüz yetmiş altı nəfər qətlə yetirildi.[36]

İsmayıl mirzənin başçılığı altında qızılbaş ordusunun Ərzurumun Osmanlı hakimi, lovğa İsgəndər paşa üzərində qəti qələbəsi osmanlılara dəhşətli təsir göstərdi. Bu

---

[29] Rumlu, *Safevi Şahı II. İsmayıl*, 561.
[30] Rumlu, *Safevi Şahı II. İsmayıl*, 561; Hins, *Şah İsmayıl-i Dovvom-i Səfəvi*, 25.
[31] Celalzade, *Kanuninin tarihçisinden Muhteşem Çağ: Kanuni Sultan Süleyman,* 305-306.
[32] Rumlu, *Safevi Şahı II. İsmayıl*, 561
[33] Rumlu, *Safevi Şahı II. İsmayıl*, 562.
[34] Münşi, *Tarix-i aləmara-yi Abbasi*, 178.
[35] Rumlu, *Safevi Şahı II. İsmayıl*, 563; Hinz, *Schah Esmail II. Ein Beitrag zur Geschichte der Şafavīden,*32.
[36] Rumlu, *Safevi Şahı II. İsmayıl*, 563; Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti*, 89.

döyüşdə İsmayılın həyata keçirməyə nail olduğu taktiki manevrlə, yəni qəsdən geri çəkilmək yolu ilə düşməni qaladan kənara çıxarmağa nail oldular. Qızılbaşlar tərəfindən açıq sahədə İsgəndər paşanın qoşunları mühasirəyə alındı və tamamilə darmadağın edildi. Osmanlı sultanının bir sıra adlı-sanlı sərkərdələri əsir alındı.[37] Onların arasında Mərəş hakimi Kəbir İsa, vaxtı ilə Hələb hakimi olmuş Xeyirbəyin qardaşı oğlu Mahmud bəy, İsgəndər paşanın qardaşı Ramazan bəy, Çəmişkəzək hakimi Pir Hüseyn bəy, Malatya hakimi Xeyrəddin bəy, Trabzon valisi Mustafa bəy, Pasin əmiri Heydər bəy, Əli ağa Qullarağası, Bayburdlu Məhəmməd bəy, İsgəndər paşanın arvadının qardaşı Əli bəy və Ərzurum qazısı var idi.[38] Bu zaman Qaraman hakimi Osman paşa və Xızır paşa Zülqədər Ərzincanda idilər. Qəflətən onların ordugahında qızılbaşların sürətli yürüşü və osmanlıların məğlub olması xəbəri yayıldı. Belə ki, döyüşdən qaçan bir dəstə Osmanlı əsgəri özünü onların ordusuna yetirmiş və qorxunc xəbəri onlara çatdırmışdılar. Buna görə də onlar canlarının qorxusundan Ərzincandan qaçmağa başladılar.[39] İsmayıl mirzə alınması mümkün olmayan Ərzurum qalasının ətrafında bir neçə gün dayandıqdan sonra müzəffər və qalib şəkildə qayıtdı və Ərciş yaxınlığındakı şah düşərgəsinə gəldi.[40]

Qeyd etmək lazımdır ki, İsmayıl mirzənin rəhbərliyi altında qızılbaşların İsgəndər paşa üzərindəki qələbəsi xəbəri Osmanlı sarayında da ciddi əks-səda yaratdı. Sultan Süleyman təcili olaraq Rumeli bəylərbəyinə Avropa cəbhəsinə göndərilməyən Rumeli əsgərlərini Geliboluda toplayaraq Anadoluya keçirməsini tapşırdı, Anadolu, Qaraman, Zülqədər, Şam, Hələb, Diyarbəkr, Kürdüstan, Bağdad və Adanaya çaparlar yola salındı, şahzadə Mustafaya, Səlim və Bəyazidə məktublar gönədərilərək əsgərləri toplamasını tapşırdı. Sultan sədrəzəm Rüstəm paşanı yeni yaradılacaq orduya baş komandan təyin edərək sarayda olan yeniçəri və sipahi dəstələrini bölük rəhbərləri ilə onun sərəncamına verib yola çıxmasını əmr etmişdi.[41]

İsmayılın bu parlaq qələbəsi ona məğlubedilməs sərkərdə şöhrəti gətirdi. O, özünün cəsarətli, sürətli həmlələri ilə osmanlıları dəhşətə saldığı üçün onlar onu “Dəli

---

[37]Hinz, *Schah Esmail II. Ein Beitrag zur Geschichte der Şafavīden,* 32; Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* 114.
[38] Rumlu, *Safevi Şahı II. İsmayıl,* 563.
[39] Rumlu, *Safevi Şahı II. İsmayıl*, 563.
[40] Rumlu, *Safevi Şahı II. İsmayıl*, 564; Hinz, *Schah Esmail II. Ein Beitrag zur Geschichte der Şafavīden,* 32; Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* 89.
[41] Celalzade, *Kanuninin tarihçisinden Muhteşem Çağ: Kanuni Sultan Süleyman,* 306.

İsmayıl" adlandırmışdılar.[42] Hətta iyirmi ildən artıq keçdikdən sonra da İsmayılın hünərləri haqqında rəvayət Azərbaycanda hələ də yaşamaqda və adətən belə hallarda olduğu kimi, hədsiz dərəcədə bəzk-düzək vurmaqla qalmaqda davam etmişdi.[43] Qeyd etmək lazımdır ki, İsgəndər paşa üzərində əldə olunan qələbə İsmayıl mirzəni o qədər məşhurlaşdırdı ki, Qızılbaşlar və bütün xalq onu Qəhqəhə qalasında iyirmi illik həbsi zamanı heç unutmadı və hətta ölümündən sonra belə adı xatirələrdən silinmədi. Səfəvi dövlətinin bəzi vilayətlərində və Anadoluda bir neçə Yalançı İsmayıl zühur etdi. İsmayıl mirzənin bu şöhrəti gələcəkdə onun taxta çıxmasında önəmli rol oynadı.[44] İsgəndər bəy Münşi İsmayıl mirzəyə rəğbət bəsləmədiyi halda etiraf edir ki, "İstər qoşundan, istərsə də rəiyyətdən olan xalqın və sadə camaatın əksəriyyəti yüksək şöhrətli atasının fərmanına uyğun olaraq illərdən bəri Qəhqəhə qalasında ixtiyarsız olan İsmayıl mirzənin tərəftarı idi".[45]

1554-cü ilin yazında Şah I Təhmasib Naxçıvanda olan zaman sülh danışıqları üçün Osmanlı sarayına göndərilmiş Seyid Şəmsəddin Dilicani orduya yetişdi və sultanın məktubunu şaha təqdim etdi. Məktubda Osmanlı sultanı "Şərqin və Qərbin" padşahına kifayət qədər ehtiram göstərməmişdi. Buna cavab olaraq şah oğlu İsmayılı yenidən qoşunla Kürdüstana göndərdi.[46] Həsən bəy Rumlu bu barədə yazır: "Şah Təhmasib aləm sakinlərinin şahzadəsi İsmayıl mirzəni, Məsum bəy Səfəvini və Şahqulu xəlifə Möhürdarı çoxsaylı qazilərdən ibarət bir dəstə ilə Rum padşahının vilayətinə basqına yolladı və və Sultan Hüseyn mirzə ilə Şahverdi sultan Ziyadoğlunu Kürdüstana basqına göndərdi. İsmayıl mirzə Vanı, Vostanı, Ərcişi və Adilcevazı qarət edib sağlam şəkildə və qənimətlə orduya qayıtdı. Sultan Hüseyn mirzə və Şahverdi sultan Ziyadoğlu da Gevara basqın etdilər və [oranı] yan-dırdılar, müzəffər və qalib şəkildə, qeyriməhdud qənimətlərlə Naxçıvanda zəfər nişanlı orduya qoşuldular".[47]

1554-cü ildə Sultan Süleyman Azərbaycana dördüncü yürüşü zamanı Naxçıvanı ələ keçirdi. Öz taktikasına sadiq qalan Səfəvi şahı düşmənin başlıca qüvvələri ilə toqquşmadan çəkinərək, sultan qoşunlarının hərəkət edəcəyi gözlənilən yollara viran-

---

[42] Selaniki Mustafa Efendi, *Tarih-i Selaniki*. Hazırlayan Prof., Dr. Mehmet İşpirli, İstanbul: Edebiyat Fakültesi Basımevi, 1989, 116; Hinz, *Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavīden,* 32; Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti*, 114.
[43] Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti*, 114.
[44] Rumlu, *Safevi Şahı II İsmayıl,* 11-12.
[45] Münşi, *Tarix-i aləmara-yi Abbasi*, 267.
[46] Rumlu, *Safevi Şahı II. İsmayıl*, 568; Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* 89.
[47] Rumlu, *Safevi Şahı II. İsmayıl*, 568; Hinz, *Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavīden,* 33; Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* 89.

edici həmlələr edirdi. Şah Bazarçay yaylağına tərəf çəkildi.[48] İsgəndər bəy Münşi yazır ki, şahın əmri ilə qızılbaşların bir dəstəsi İsmayıl mirzənin, Məsum bəy Səfəvinin və Şahqulu Xəlifənin başçılığı altında Van və Vostan bölgələrinə, digəri isə Sultan Hüseyn mirzənin (Bəhram mirzənin oğlu) və Şahverdi Sultan Ziyadoğlunun başçılığı ilə Pasinə göndərildi. Bu basqınların məqsədi düşmənin geri çəkiləcəyi yolun üstündəki yerləri xarabaya çevirməkdən ibarət idi ki, "həmin diyarda abadlıqdan əsər-əlamət qalmasın".[49] V.Hins yazır ki, bu yürüş zamanı İsmayıl mirzə düşmənin 300 dəvəyə yüklənmiş ərzaq ehtiyatını da ələ keçirmişdi.[50]

Həsən bəy Rumlu İsmayıl mirzənin qısa müddət ərzində böyük hərbi rəşadət göstərdiyini, dövrünün tanınmış bahadırlarından birininə çevrildiyinə diqqəti cəlb edərək yazır: "Məhdud qoşunlarla və uzun bayraqlarla hansı tərəfə üz tutmuşsa, ibadət olunan həzrət (Allah) fəth qapılarını onun üzünə açmışdır. Şirvan padşahı Bürhanla, Əli paşa ilə, Əhməd paşa ilə, İsgəndər paşa ilə döyüşlər o həzrətin (İsmayıl mirzənin) bahadırlığına [dair] dörd ədalətli şahiddirlər".[51]

Kəskin ərzaq çatışmazlığı ilə üzləşən sultan qabaqcadan od vurub yandırdığı Naxçıvanı tərk etdi və geriyə – Ərzuruma qayıtdı. Buna görə də Səfəvi şahı "Qanlı-çəmən mövqeyindən İsmayıl mirzəni və Şahqulu xəlifə Möhürdarı adlı-sanlı əmirlərin bir dəstəsi ilə Oltu tərəfə göndərdi. Ali mənşəli əmirlər, xondgarın fərmanı əsasında bir dəstə rumi ilə yolu təmir etməyə gəlmiş Sinan bəyə rast gələrək, onların əksərini iti qılınc zərbəsi ilə həlak torpağına sərdilər və Sinan bəyi əsir edib hökmdar ordusuna gətirdilər".[52]

**İsmayıl mirzənin Herata vali göndərilməsi**

Yürüşün yorub əldən saldığı Osmanlı qoşunları arasında narazılıq artırdı. Sultanın özü və yaxın adamları da ordunun əhval ruhiyyəsi, həmçinin özlərinin Azərbaycana yürüşlərinin faydasızlığı ilə hüsablaşmağa məcbur idilər. Buna görə də, Osmanlı sultanı Səfəvilərin dəfələrlə təkid etdiyi sülh danışıqlarına başlamağa razı olduğunu bildirdi.[53] Aparılan danışıqlar nəticəsində 1555-ci il iyunun 1-də Amasyada Səfəvi-Osmanlı sülhü imzalandı. Sülhün yaratdığı dinc fasilədən istifadə edən Şah I Təhmasib Qarabağdan Təbrizə qayıtdı və sülh bağlanmasını bayram etməyi, osman-

[48] Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* 89.
[49] Münşi, *Tarix-i aləmara-yi Abbasi,* 179-180; Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* 90.
[50] Hinz, *Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavīden,* 33.
[51] Rumlu, *Safevi Şahı II. İsmayıl*, 624.
[52] Rumlu, *Safevi Şahı II. İsmayıl*, 569-570.
[53] Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* 90.

lılarla müharibənin qəhrəmanını layiqincə alqışlamaq qərarına gəldi və oğlu İsmayıl mirzəyə möhtəşəm toy məclisi təşkil etdi. Xacə Zeynalabdin Əli Əbdi bəy yazır ki, "Şah Nemətülla Baqi Yəzdinin* qızını kainatı fəth edən İsmayıl mirzə üçün alaraq, dünyanın gözü mislini heç bir zaman görmədiyi, cahan əhlinin ona bənzərini heç bir dildən, heç bir vaxtda eşitmədiyi bir toy etdi".[54] İsgəndər bəy Münşi bu toy barədə yazır: "... Təbrizin Şimalabad adlı könül oxşayan bağında böyük bir şənlik məclisi təşkil edilib, elə bir toy quruldu ki, hələ də həmin ziyafət və şadyanalıq qızılbaşlar arasında aşağı və yuxarı təbəqədən olan insanların dillərində əzbərdir".[55] Şah I Təhmasib oğlunu çox sevdiyindən Təbrizdə təşkil olunmuş toyda hətta özü də ayağa qalxaraq oynamışdı.[56] Təmtəraqlı toy məclisindən göründüyü kimi, bu dövrdə Şah I Təhmasiblə sevimli oğlu arasında münasibətləri poza biləcək heç nə yox idi.

Dövrün farsdilli qaynaqlarında, o cümlədən İsmayıl mirzənin tərəfdarı olan Həsən bəy Rumlunun əsərində də qızılbaşlar arasında böyük nüfuza sahib olan şahzadənin Herata göndərilməsinin səbəbləri barədə heç bir məlumat verilmir. O, yalnız "şah Herat hakimliyini aləm sakinlərinin şahzadəsi olan İsmayıl mirzə cənablarına həvalə etdi və Sultan Məhəmməd mirzəni oradan yanına çağırdı"[57] cümləsini yazmaqla kifayətlənir. "Təkmilətül-əxbar"ın müəllifi də Qızılbaşlar arasında böyük nüfuz qazanmış gənc şahzadənin Herata göndərilməsinin səbəblərinə toxunmadan yazır ki, Heratın idarəsi İsmayıl mirzəyə verildi. Onun ləlǝliyi oranın hakimi Məhəmməd xan Şərəfəddinoğlu Təkəlüyə tapşırıldı. Qəzvində olan Şərəfəddin Təkəlünün oğlu Əli sultan 1556-cı il fevralın 18-də İsmayıl mirzə ilə birlikdə yola düşdü və aprelin 7-də Herata çatdı.[58] Yalnız İsgəndər bəy Münşi İsmayıl mirzənin Herata göndərilməsinə müəyyən aydınlıq gətirərək yazır: "... İsmayıl mirzə bu ali mərtəbənin və şahanə şəfqətlərin qədrini bilməyib, yüksək mövqeli atasının mübarək xatirinə acıq gələn işlərə baş qoşdu. Buna görə də şah həzrətləri çahzadənin hökmdarın hüzurunda qalmasını məsləhət bilməyərək, 963-cü ildə (16.11.1555 – 03.11.1556) Sultan Məhəmməd mirzə cənablarını darüssəltənə Heratdan orduya (şahın düşərgəsinə) tələb edib, İsmayıl mirzəni Herata göndərdi. Hökm-

* İsmayıl mirzənin həyat yoldaşı bibisi qızı idi, Nemətullahi sufi təriqətinin başçısı olan Şah Nemətulla Yəzdinin Şah Təhmasibin bacısı Xanış xanımla nikahından doğulmuşdu: Rumlu, *Safevi Şahı II. İsmayıl,* 577, qeyd 2454.
[54] Əli Əbdi bəy, *Təkmilətül-əxbar,* 77-78.
[55] Münşi, *Tarix-i aləmara-yi Abbasi*, 293.
[56] Rumlu, *Safevi Şahı II İsmayıl,* 12.
[57] Rumlu, *Safevi Şahı II. İsmayıl*, 581.
[58] Əli Əbdi bəy, *Təkmilətül-əxbar,* 78.

darın fərmanına əsasən, Əli sultan Təkəlü onu Herata çatdırdı və Sultan Məhəmməd mirzəni saraya gətirdi".[59]

Qeyd etmək lazımdır ki, İsmayıl mirzənin məğrur xarakterə malik olması, hərbi rəşadəti, Osmanlı ordusuna qarşı döyüşlərdə göstərdiyi şücaət qızılbaş döyüşçülər arasında onun nüfuzunu artırdığına görə, ola bilsin ki, Şah I Təhmasib və yaxın ətrafı, xüsusən də ona rəğbət bəsləməyən baş vəzir Məsum bəy Səfəvi böyük qısqanclıqla qarşılamışdı. Görünür, oğlunun geniş xalq kütlələri və qızılbaş döyüşçüləri arasında nüfuzunun yüksək olmasından narahatlıq Şah I Təhmasibin onu paytaxtdan uzaqlaşdırmasında az rol oynamamışdı. İtalyan diplomatı Vinçenso Alessandrinin qeydləri də bu məsələni aydınlatmağa müəyyən işıq salır. O, yazır: "... İsmayıl atası tərəfindən xüsusi olaraq sevilir, lakin onun bütün xalq tərəfindən hökmdar kimi necə hərarətlə arzu olunduğunu görərək, ondan çox çəkinir. Sultanlar onun olduqca məğrur xasiyyətinə görə ondan olduqca qorxurdular. Belə ki, əgər o, bir zaman taxta gələrsə, bir çox hərbi rəisləri dəyişə bilər və krallığın (imperiyanın – T.H.) bir çox vilayətlərinə sahib olan qardaşlarına qarşı çıxar".[60] İsmayıl mirzə ilə bağlı Vinçenso Alessandrinin fikirlərini İsgəndər bəy Münşinin qeydləri müəyyən qədər tamamlamağa imkan verir: O, yazır: "... cənnəyməkan şahın yüksək məqamlı övladı ... olan İsmayıl mirzə öz cavanlığından irəli gələn bəzi yanlış dostluq əlaqələrinə malik idi. O, qızılbaşlardan olan bəzi başıpozuqlarla oturub-dururdu ki, bu da cənnətməkan şahın şərəfli xatirinə xoş gəlmirdi. Buna görə də şah onu hökmdar ordugahında saxlamağı məsləhət görməyərək, İsgəndər şanlı nəvvabı darüssəltənə Heratdan geri çağırdı və onun əvəzinə İsmayıl mirzəni Xorasana hakimlik etməyə göndərdi, Məhəmməd xan Şərəfəddioğlu Təkəlü isə İsmayıl mirzənin lələsi təyin edildi".[61] Göründüyü kimi, İsmayıl mirzənin xalq kütlələri və qızılbaş döyüşçüləri arasında artmaqda olan nüfuzu Şah I Təhmasibi təmin etmədiyinə görə şahzadəni paytaxtan uzaqlaşdırmağa və Herata göndərilməsinə göstəriş verdi. M.Eravçı İsmayıl mirzənin Qəhqəhə qalasında zindana salınmasının səbəblərinə toxunaraq yazır ki, o, Səfəvi dövlətinin qərb sərhədlərində təsirli fəaliyyət göstərdiyinə, xüsusən də Şərqi Anadoluya sahib olmağa çalışdığına və bununla da Səfəvi-Osmanlı

[59] Münşi, *Tarix-i aləmara-yi Abbasi*, 293.
[60] *Venesiyalılar Şah I Təhmasibin sarayında*, 84.
[61] Münşi, *Tarix-i aləmara-yi Abbasi*, 405.

sülhünü pozulmasına təhlükə yaratdığına görə ələ keçirilərək Qəhqəhə qalasında həbs edilmişdi.[62]

1556-cı ilin yazında Əli sultan Təkəlinin müşaiyəti ilə İsmayıl mirzə Herata gəldi. Əli sultan İsmayılı Xorasana müşaiyət edən zaman şahdan məktub almışdı ki, onu Məhəmməd mirzənin lələsi, Heratın əmirül-ümərası Məhəmməd xan Şərəfəddinoğluna şəxsən təqdim etsin. Məktubda yazılmışdı ki, İsmayıl mirzə hər işdə yalnız əmirin razılığı və təqdir etməsi ilə fəaliyyət göstərməli, tamamilə onun himayəsi altında olmalıdır. Əli sultan İsmayılı məktubun məzmunu ilə tanış etdikdən sonra onu əmirdən gizlətdi. Məhəmməd xanın şahın məktubunu ona vermək tələblərinə Əli sultan soyuqqanlıqla cavab verdi ki, o, Şah I Təhmasibin şifahi əmrini ona çatdırmalıdır. Həmin əmrə görə isə əmir və oğlanları hər işdə şahzadəyə tabe olmalıdırlar.[63]

İsmayıl mirzə Herata gələn zaman Məhəmməd xan xəstə olduğu üçün şahzadəni şəhərdən kənarda qarşılamağa çıxmadığı üçün şahzadənin qəzəbinə səbəb olmuşdu. Əli sultan şahzadəni öz tərəfinə çəkmək üçün lələsi ilə arasında yaranmış qəzəbi daha da qızışdırmış və ona məsləhət bilmişdi ki, Məməmməd xanla hesablaşmasın və onun tərəfdarlarını şəhərdən uzaqlaşdırsın. Məhəmməd xan rəsmi tədbirlərin birinə gələn zaman İsmayıl mirzə ona aid olan yeri boşaltdırmadığına görə böyük əmir bir müddət təhqir olunmuş şəkildə ayaq üstə gözləməli olmuş, sonra isə yüksək tituluna uyğun gəlməyən yerdə oturmalı olmuşdu.[64]

Qeyd etmək lazımdır ki, Əli sultanın Məhəmməd xanla şahzadə arasındakı münasibətlərdə müəyyən gərginlik yaratmasının arxasında məhz İsmayıl mirzə dayanırdı. Şərəfxan Bidlisi yazır ki, Əli sultan İsmayıl mirzə ilə birlikdə Herata daxil olan zaman Məhəmməd xanın oğlanları Tatar sultan və Əli bəylə Əli sultan Təkəlünün adamlarından bəzilərinin, o cümlədən Məhəmməd xanın qardaşı Üveys sultanın oğlu Şərəfəddin bəy tərəfindən lələ Məhəmməd xana qarşı bəzi həqarətlər və xəyanətlər ortaya çıxdı.[65] Belə bir vəziyyətdə heç bir çıxış yolunun olmadığını görən, dövlət işlərindən uzaqlaşdırılmış və təhqir olunmuş Məhəmməd xanın İsmayılın davranışı barədə şaha məlumat verməkdən başqa çarəsi qalmadı. O, şaha məktubla müraciət

---

[62] Mustafa Eravcı, "II. Şah İsmail Döneminde Doğu Anadolu'da Safavi Tehdidi", *Türkiye'nin Güvenliği Sempozyumu (Tarihten Günümüze İç ve Dış Tehditler, 17-19 Ekim 2001),* Editörler: Orhan Kılıç, Mehmet Çevik, Elazığ: 2002, 293; Cihat Aydoğmuşoğlu, Şah II. İsmail devri (1576-1577) siyasi ve dini hadiseleri //*The Journal of Academic Social Science Studies,* Number: 48, Summer II, (2016): 61.

[63] Hinz, Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavī¬den, 35; Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* 115-116.

[64] Hinz, Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavī¬den, 37.

[65] Bitlisi Şerefhan, *Şerefname, Osmanlı-İran tarihi,* 2. Cilt, Farscadan çeviren Osman Aslanoğlu, İstanbul: Nubihar, 2014, 185.

edərək ona hər şeyi olduğu kimi xəbər verdi. O, eyni zamanda şahzadə Məhəmməd mirzəni də məlumatlandırdı. O, Əli sultanın yola salınmasını israr etdi.[66] Şah I Təhmasib Əli sultanı geri çağırdı. Beləliklə, Əli sultan İsmayıl mirzəyə sədaqətini öz həyatı bahasına ödəməli oldu.[67]

Əli sultan Məhəmməd mirzə ilə Heratdan qayıdanda, şahın olduğu Savucbulaqdan bir qədər aralıda şah qorçilərindən biri onu ölüncəyədək döydü. İsgəndər bəy Münşi, bu qəddarcasına divanın səbəbini açmadan bunu göstərməklə kifayətlənir ki, İsmayılı Herata müşaiyət edərkən o, şah tərəfindən verilmiş göstərişləri yerinə yetirməmişdir.[68]

**İsmayıl mirzənin Qəhqəhə qalasında zindana atılması**

İsmayıl mirzə Herata daxil olan zaman lələsi Məhəmməd xanla münasibətdə tam sərbəsliyə nail olmağa çalışaraq bütün hakimiyyəti öz əlinə almağa çalışdığı üçün onlar arasında müəyyən fikir ayrılığı ortaya çıxmış və sonrakı həftələrdə baç verən hadisələr göstərdi ki, şahzadə ilə lələsi arasında xeyirxah münasibətlərdən əsər-əlamət qalmamışdır. İsmayıl mirzə həqiqətən lələsini bütün hüquqlardan məhrum edərək onun iştirakı olmadan bütün dövlət işlərini öz əlinə almış və bununla da on verilmiş hüquqlardan suistifadə etmişdir. Onun konkret olaraq nələr etməsi barədə dövrün farsdilli qaynaqları heç bir məlumat vermirlər. İsgəndər bəy Münşi "İsmayıl mirzənin Xorasandakı davranışı da hökmdar tərəfindən bəyənilmədi" yazmaqla kifayətlənir.[69] Yalnız italyan diplomatı Vinçenso Alessandri bununla bağlı müəyyən məlumat verir. O, yazır: "... kralın (şahın – T.N.) baş vəziri Məsum bəy bu gəncin iddialı olduğunu və atasının icazəsi olmadan ordu toplayıb, sülh şəraitində osmanlıların ölkəsinə girdiyini anlayıb, bunu itaətsizlik hesab edərək, krala (şaha – T.N.) onun bütün əyalətlərin sultanlarına göndərdiyi, onları osmanlılara qarşı müharibəyə çağıran bəzi məktubları göstərdi. Beləliklə, o, kralı (şahı – T.N.) onu sultanların və əsgərlərin mühafizə etdiyi qalaya salınmasına inandırdı".[70]

V.Hins Avropa qaynaqlarına əsaslanaraq Şah I Təhmasibin İsmayıl mirzənin Heratdan geri çağrılmasının səbəbləri barədə yazır ki, birincisi, İsmayıl mirzə Herata gedərkən yanında olan mülazimlərdən Əli sultana Şah I Təhmasibin Məhəmməd xan

---

[66] Hinz, Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavī¬den, 35.
[67] Hinz, Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavī¬den, 36; Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti*, 116.
[68] Münşi, *Tarix-i aləmara-yi Abbasi,* 293-294; Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* 115.
[69] Münşi, *Tarix-i aləmara-yi Abbasi,* 405.
[70] *Venesiyalılar Şah I Təhmasibin sarayında*, 83.

Şərəfəddinoğluna yazdığı məktubu açdırıb oxutdurması və dərhal sonra Hertada təkbaşına hökmranlıq etmək üçün Əli sultanın yardımı ilə lələsi Şərəfədddinoğlunu öldürmək istəməsidir. İkincisi isə, İsmayıl mirzənin Qızılbaş əmirlərinə məktublar yazaraq onları Amasya müqaviləsinin şərtlərinə zidd olaraq Osmanlı torpaqlarına hücum etməyə çağırmasıdır. İsmayıl mirzə ilə düşmənçiliyi olan vəzir Məsum bəy Səfəvi şahzadənin bu təhlükəli planları barədə Şah I Təhmasibə məlumat verdi. O, qızılbaşlar arasında sevildiyi üçün şahzadənin taxt-tac üçün təhlükəli olduğunu şaha xəbər verdi. Həmçinin İsmayıl mirzənin hərəkətləri barədə Məhəmməd xan Şərəfəddinoğlunun göndərdiyi məktublar və ətrafdakıların təlqini nəticəsində Şah I Təhmasib İsmayıl mirzəni Heratdan çağırıb, onun Qəzvinə dönməsinə belə icazə vermədən birbaşa Qəhqəhə qalasına göndərdi.[71] Şərəfxan Bidlisi də yazır ki, 1556-cı ildə Şah I Təhmasib Heratdan İsmayıl mirzənin pis hərəkətləri barədə xəbərlər aldığına görə oranın idarəsini ondan alıb təkrar Məhəmməd mirzəyə verdi.[72]

Qeyd etmək lazımdır ki, dövlət işlərindən uzaqlaşdırılmış və təhqir olunmuş Məhəmməd xan sərt xarakterə malik məğrur bir gənc olan İsmayıl mirzənin davranışı barədə şaha məlumat verir və onun geri çağrılmasını xahiş edir. Eyni zamanda şaha böyük təsiri olan və İsmayıl mirzəyə rəğbət bəsləməyən vəzir Məsum bəy Səfəvi, sultana qarşı yürüş etmək üçün qoşun toplamaq barədə çağırışla İsmayılın vilayət hakimlərinə göndərdiyi bir neçə məktubu ona göstərir. Şah doğma qardaşları Əlqasın və Samın ona vurduqları ağır zərbələrin acı nəticələrini hələ unutmadığından, belə təhlükəli itaətsizlik əlamətlərini təqdir edə bilməzdi. Habelə oğlunun qızılbaş döyüşçüləri arasında necə məşhur olduğu da şaha daha yaxşı məlum idi.[73] Belə fərz etmək də məntiqidir ki, Şah I Təhmasib İsmayılın onu taxtdan kənar edib yerini tuta biləcəyindən də ciddi surətdə qorxurdu.[74] O, nəzərə alırdı ki, oğlu Amasya müqaviləsinin şərtləri ilə hesablaşmayaraq Şərqi Anadolunu, hətta Bağdadı geri qaytarmaq fikrinə düşdüyünə görə, Osmanlı imperiyası ilə münasibətləri gərginləşdirə bilər. Şahzadənin keçirdiyi tüfeyli həyat tərzi də şahı narahat edirdi.[75] Buna görə də İsmayılın gələcək fəaliyyətindən ehtiyat edən Şah I Təhmasib, dərhal hərbi dəstənin rəisi Sevindik bəy Əfşarı İsmayılı vəzifədən kənar etmək əmri ilə Herata göndərdi. Onun yerinə Məhəm-

[71] Hinz, Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavī¬den, 37-38.
[72] Bitlisi, *Şerefname,* 186.
[73] Hinz, Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavī¬den, 36; Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti*, 116.
[74] *Venesiyalılar Şah I Təhmasibin sarayında,* 83; Hinz, Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavī¬den, 37; Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti*, 116.
[75] Hinz, Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavī¬den, 36, 37.

məd mirzə yenidən Herat hakimi təyin olundu. Sevindik bəy İsmayılla Təbəs və Yəzddən keçib Savəyə gəldi. Burada Məsum bəy Səfəviyə təhvil verilən İsmayıl onun əmri ilə Qəhqəhə qalasına aparıldı.[76] İsgəndər bəy Münşi yazır ki,"... İsmayıl mirzəyə heç şahla görüşmək şərəfinə nail olmaq imkanı da verilmədi".[77]

İsmayılın saraydakı fəal tərafdarları – Həmzə bəy Rikabdarbaşı, Xeyir Mirək, Süleyman bəy bu zaman artıq cəlandırılmışdılar. Şahzadəyə yaxın olan Şahrux bəy Tatı oğlu İstəxr qalasına salınmışdı.[78]

**İsmayıl mirzənin zindan həyatı**

İsmayıl on doqquz il, altı ay və iyirmi bir gün qalada yaşadı.[79] V.Hins və O.Ə. Əfəndiyev yazır ki, o, iyirmi dörd yaşında[*], qüvvə və bacarığının yüksəliş çağında qalanın astanasından içəri adlayaraq, oradan mənəvi və fiziki cəhətdən sarsıdılmış halda, yalnız qırx üç yaşında çıxa bilmişdi. Bu zindan İsmayılın qəlbində sağalmaz iz buraxmış və onun gələcəkdə qısamüddətli hakimiyyəti zamanı törətdiyi qeyri-insani qəddarlıqlarda ifadəsini tapmışdır.[80]

Dövrün farsdilli qaynaqları İsmayıl mirzənin Qəhqəhə qalasındakı həyatı ilə bağlı çox məhdud məlumat verir. Qəhqəhə qalası həpsxanadan başqa, həm də Səfəvi xəzinəsinin saxlandığı anbar yeri kimi çox məşhur idi. Qalanın rəisləri iki ildən bir dəyişsə də, onlar şahdan şahzadəni sərt rejimdə saxlayacaqları barədə ciddi təlimat almışdılar. Görünür, ilk dövrlərdə o, hətta zəncirlənmiş, bir müddəttdən sonra isə hərəkət azadlığı almış və təmiz dağ havasında nəfəs almasına icazə verilmişdir. İsmayıl tez-tez qalanın ətəyində uçurumun ayağındakı qayalar üzərində gəzən dərvişlərlə müşahidə qülləsindən danışmaq fürsəti əldə edir və onlardan ölkədə baş verən hadisələr barədə məlumat alırdı.[81] V.Alessandri yazır ki, artıq İsmayılın zindana atılmasından 17 ildən çox vaxt ötür və bu il onlar keşikçiləri götürsələr də, onu azadlığa buraxmadılar. Şah ona xoş gəlsin deyə, yanına onu əyləndirmək üçün gözəl qadınlar yollamışdır, lakin o,

---

[76] Əli Əbdi, *Təkmilətül-əxbar,* 79; Hinz, Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavī¬den, 37; Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* 116.
[77] Münşi, *Tarix-i aləmara-yi Abbasi,* 405.
[78] Hinz, Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavī¬den, 37; Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* 116.
[79] Münşi, *Tarix-i aləmara-yi Abbasi,* 405; Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* 116.
[*] İsgəndər bəy Münşi yazır ki, 1576-cı ildə Şah I Təhmasibin ölümü vaxtı İsmayıl qalada məhbus idi və qırx yaşı vardı (bax: Münşi, *Tarix-i aləmara-yi Abbasi,* 294). Buna görə də İsmayıl Qəhqəhə qalasında zindana atılan zaman 24 deyil, 21 yaşında olmuşdur.
[80] Hinz, Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavī¬den, 38; Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* 116.
[81] Hinz, Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavī¬den, 38.

onlarla heç bir əlaqədə olmamışdır. O, atasının onu həbsdə saxladığına səbrlə dözəcəyini, amma uşaqlarının da dustaq olacağının ona çox ağır gəldiyini bildirmişdi.[82]

Qalada təklikdə həbs cəzasına məhkum olunan İsmayıl talehinin ümidsiz olduğunu düşünərək çıxış yolunu yalnız tiryək çəkməkdə görürdü. Şahzadə özünü tiryəkə alışdırmaqla günlərini sanki səmavi dünyada keçirirdi. Onun azad olmaq ümidləri tükəndiyi üçün dəli olmaq səviyyəsinə çatmışdı. İllər ötdükcə sərxoşluğun və darıxdırıcı həyatın alternativləri görünmürdü. Bununla belə, onun igidliyi, göstərdiyi rəşadət bütün ölkədə hələ də unudulmamışdı. Əksər qızılbaşlar arasında İsmayılı taxt-tacın varisi kimi görmək istəyənlər var idi. Şahın böyük oğlu Məhəmməd mirzə uşaqlıq illərində suçiçəyi xəstəliyi keçirdiyi zaman görmə qabiliyyəti zəiflədiyinə görə tanınmış qızılbaş əmirləri tərəfindən vəliəhdliyə layiq görülməmişdi. Buna görə də böyük əksəriyyətin zindana atılmış şahzadəyə rəğbətini açıq ifadə etməsi üçün bir bəhanəyə ehtiyacı var idi.[83] Belə bir bəhanə 1571-ci ildə Qəhqəhə qalasında saxlanılan 600 külçə içərisindən bir qızıl və bir gümüş külçənin yoxa çıxması ilə ortaya çıxdı. Qala rəisi Həbib bəy Ustaclı külçələrin yoxa çıxmasında şahzadəni günahlandırdı.[*] İsmayıl isə bu işdə Həbib bəyin qızının təqsirkar olduğunu söylədi. İşi yerindəcə təhqiq etmək üçün şah bir dəstə qızılbaş əmirini qalaya göndərdi. Hüseynqulu Xəlifə Rumlu və Qum hakimi Vəli Xəlifə Şamlı şahzadənin tərəfini saxladılar. Buna baxmayaraq, ustaclı tayfasının nümayəndəsi Pirə Məhəmməd xan və Qaradağ hakimi Xəlifə Ənsar Həbib bəyin tərəfində durub onun ittihamını müdafiə etdilər.[84] Qalaya göndərilən heyət üzvləri arasında ixtilafın ortaya şıxması araşdırmanın yarımçıq qalmasına səbəb oldu. Onlar Qəzvinə qayıtdıqdan sonra şahın qarşısında bir-birinin üzərinə hücum etməkdən belə çəkinmədilər. Şərəfxan Bidlisi yazır ki, "Elə həmin gündən qızılbaş tayfaları arasında düşmənçilik başlandı".[85]

Bununla da, Qəzvin sarayında şahzadə İsmayıl mirzəyə münasibətdə qızılbaş əmirləri arasında iki qruplaşma yrandı. Rumlular və Şamlılar şahzadəni müdafiə etdikləri halda, Ustaclılar, Qaradağlılar və onlara qoşulan gürcü əsilli əmirlər İsmayıla qarşı birləşdilər. Qızılbaş əmirləri arasındakı bu parçalanma 1575-ci ilin payızında Şah I

---

[82] *Venesiyalılar Şah I Təhmasibin sarayında,* 83-84.
[83] Hinz, Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavī¬den, 39.
[*] İsmayıl mirzə ölkədə baş verən hadisələr barədə məlumat əldə etmək üçün külçələri qala divarlarından Osmanlı torpaqlarından gələn dərvişlərə paylamaqda günahlandırılırdı:bax: Rumlu, *Safevi Şahı II İsmayıl,* 14.
[84] Bitlisi, *Şerefname,* 212; Hins, *Şah İsmayıl-i Dovvom-i Səfəvi,* 39-40; Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* 117; Rumlu, *Safevi Şahı II İsmayıl,* 14-15.
[85] Bitlisi, *Şerefname,* 212; Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* 117.

Təhmasibin xəstələnməsi hadisəsi zamanı, eləcə də onun 1576-cı ilin mayında ölümündən sonra ölkədə baş verən siyasi hadisələrdə əsaslı rol oynadı.

**Nəticə**

İsmayıl mirzənin keçdiyi həyat yolu barədə dövrün qaynaqlarının verdiyi məlumatların təhlili bir daha təsdiq edir ki, o, uşaqalıq illərini sarayda keçirsə də, dövrünün tanınmış müəllimlərindən döyüş təhsili almış, elm və ədəb qaydalarını öyrənmişdir. Onun on bir yaşı olan zaman atası Şah I Təhmasib tərəfindən ona siyasi və hərbi məsuliyyəti böyük olan bir iş tapşırılmışdı. O, Şirvan vilayətinin bəylərbəyi təyin edilmişdi. Qısa müddət ərzində o, göstərdiyi hərbi çücaətə görə qızılbaş döyüşçülər arasında böyük nüfuz qazanmışdır. Osmanlı sultanı Süleyman Qanuninin Azərbaycana 1548 və 1554-cü illər yürüşləri dövründə İsmayıl mirzə qızılbaş qoşununun rəhbəri kimi baş verən döyüşlərdə özünün tanınmış sərkərdəlik bacarığını nümayiş etdirə bilmişdir. Dövrün qaynaqlarının təsdiq etdiyi kimi, onun əldə etdiyi qələbələr, xüsusən də Ərzurum hakimi İsgəndər paşa üzərində parlaq qələbə onun xalq arasında və eləcə də qızılbaş ordusunda böyük nüfuz qazanmasına səbəb olmuşdur. İsmayıl mirzənin məğrur xarakterə malik olması, hərbi rəşadəti, Osmanlı ordusuna qarşı döyüşlərdə göstərdiyi şücaət qızılbaş döyüşçülər arasında onun nüfuzunu artırdığına görə, ola bilsin ki, Şah I Təhmasib və yaxın ətrafı, xüsusən də ona rəğbət bəsləməyən baş vəzir Məsum bəy Səfəvi böyük qısqanclıqla qarşılamışdı. Görünür, oğlunun geniş xalq kütləri və qızılbaş döyüşçüləri arasında nüfuzunun yüksək olmasından narahatlıq Şah I Təhmasibi İsmayıl mirzəni Qəhqəhə qalasında zindana atdırmasına səbəb olmuşdur. İsmayıl mirzənin 20 ilə yaxın zindan həyatı onun siyasi həyatına təsirsiz ötüşməmiş, qısa müddətli hakimiyyəti dövründə həyata keçirdiyi siyasətə öz təsirini göstərmişdir.

**Mənbələr və Ədəbiyyat**

ASTARABADİ, H. M. H., *Tarix-i Sultani,* Təshih: İhsan İşraqi, Tehran: İntişarat-ı elmi, 1366.

AYDOĞMUŞOĞLU, C., Şah II. İsmail devri (1576-1577) siyasi ve dini hadiseleri, *The Journal of Academic Social Science Studies,* 48, Summer II (2016): 59-67.

BİTLİSİ, Ş., *Şerefname, Osmanlı-İran tarihi,* 2. Cilt, Farscadan çeviren Osman Aslanoğlu, İstanbul: Nubihar, 2014.

CELALZADE, M. Ç., *Kanuninin tarihçisinden Muhteşem Çağ: Kanuni Sultan Süleyman, Tbakatül Memalik ve Derecatül-Memali,* Notlandırarak hazırlayan Ayhan Yılmaz, İstanbul: Kariyer Yayınları, 2010.

ƏFƏNDİYEV O. Ə., *Azərbaycan Səfəvilər dövləti,* Bakı: Şərq-Qərb, 2007.

ERAVCI, M. H., II. Şah İsmail Döneminde Doğu Anadolu'da Safavi Tehdidi, *Türkiye'nin Güvenliği Sempozyumu (Tarihten Günümüze İç ve Dış Tehditler, 17-19 Ekim 2001),* 291-302, Ed. Orhan Kılıç, Mehmet Çevik, Elazığ: 2002.

ƏLİ ƏBDİ BƏY, X. Z., *Təkmilətül-əxbar,* Fars dilindən tərcümə, müqəddimə və şərhlər Əbülfəz Haşım oğlu Rəhimlinindir, Bakı: Elm, 1996.

GHEREGHLOU, K., "Esmail II," *Encyclopædia Iranica,* 2016, http://www. iranicaonline. org/articles/esmail-02 (07.02. 2019).

HİNZ, W., *"Schah Esmail II. Ein Beitrag zur Geschichte der Ṣafavīden,"* Berlin: Mitteilungen des Seminars für Orientalische Sprachen an der Friedrich-Wilhelms-Universität zu Berlin, 1933.

HİNS, V., *Şah İsmayıl-i Dovvom-i Səfəvi,* çeviren Keykavus Cihandari, Tehran: Şirkət-i intişarat-ı elmi və fərhəngi. 1371.

RUMLU, H., *Safevi Şahı II. İsmayıl. Kahkaha Kalesinin 20 Yıllık Mahpusu,* Tercüme, Mukaddime, Notlar ve Tıpkıbasım Hasan Asadi, Şefaatdin Deniz, İstanbul: Bilgi Kültür Sanat, 2018.

RUMLU, H. B., *Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı),* Fars dilindən tərcümə və şərhlər: AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Oqtay Əfəndiyev, tarix üzrə fəlsəfə doktoru, dosent Namiq Musalı, Kastamonu: 2017.

MÜNŞİ, İ. B., *Tarix-i aləmara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi),* Fars dilindən tərcümənin, ön sözün, şərhlərin və göstəricilərin müəllifləri AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Oqtay Əfəndiyev, tarix elmləri namizədi Namiq Musalı, Bakı: Təhsil, 2009.

SELANİKİ, M. E., *Tarih-i Selaniki.* Hazırlayan Prof., Dr. Mehmet İşpirli, İstanbul: Edebiyat Fakültesi Basımevi, 1989.

SÜMER, F., *Safevi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerinin rolu,* Ankara: TürkTarih Kurumu Basımevi, 1999.

QUMİ, Q. Ə., *Xülasətüt-təvarix,* 2. cilt. Təshih: Ehsan Eşraqi, Tehran: 1383.

*Venesiyalılar Şah I Təhmasibin sarayında (Mikele Menbre və Vinçenso Alessandri),* İngilis dilindən tərcümə, ön söz, giriş və şərhlər AMEA-nın müxbir üzvü Oqtay Əfəndiyevindir, Bakı: Təhsil, 2005.